Azərbaycan.- 2021.- 30 mart. S. 10.

# Ağstafanın Göycəli kəndində şəhidlərin xatirəsinə abidə kompleksi ucaldılıb

Ağstafanın Göycəli kəndində şəhidlərin ruhuna ehtiram əlaməti olaraq abidə kompleksi ucaldılmışdır.




Kompleksin açılışında rayon rəhbərliyi, şəhidlərin ailə üzvləri, eləcə də kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Qeyd edilmişdir ki, ölkəmizin ərazi bütövlüyü uğrunda Göycəli kəndindən 7 nəfər (1-ci Qarabağ müharibəsinin şəhidləri Namiq Həmzəyev, Şahlar Hüseynov, Novruz Qurbanov, Tovuz döyüşlərində şəhid olmuş Vüqar Sadıqov, Vətən müharibəsinin şəhidləri Qurban Mehdizadə, Turan Məmmədli və Teymur Abbasov) şəhidlik zirvəsinə ucalmışdır.

Tədbirdə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı böyük qələbədən danışmış, bu qələbədə payı olanların hər cür ehtirama layiq olduqlarını qeyd etmişdir. Abidə kompleksinin inşasına görə Göycəli kəndindən olan iş adamı Əhməd Haqverdiyevə ağstafalılar adından dərin minnətdarlığını bildirmişdir. Sonra kənd ağsaqqalları çıxış edərək şəhidlərimizin keçdikləri şərəfli döyüş yolundan və dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıkeşlikdən danışmışlar.

Sonda şəhidlərin ruhuna dualar oxunmuş, abidənin önünə tər qərənfillər düzülmüşdür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***